Hər tağdan min nübar,
Min bəhər gəlir.
Qardaş ellərindən
Şad xəbər gəlir.
Çatdıqca nübarın,
Hər yerdə dostların
Açıb süfrəni,
Anırlar səni.
Sərvətin gəlir xoşa
Deyirlər var ol, yaşa!
Sağ ol, Lənkəran,
Var ol, Lənkəran!

SUMQAYIT

Xəzərin sahilində,
Azərbaycan elində
Şəhər var, yaraşıqlı,
Gündüzləri günəşli,
Gecələri işıqlı,
Küçələri tər-təmiz,
Sanki ləpələriylə
Onu yalayır dəniz.
Binalar qatar-qatar,
Binalar gözəl-gözəl.
Elə bil çatacaqdır
Bakıya uzatsan əl.
Göydə vertalyota bax,
Kəpənəkdir elə bil
Əzizdir hər uşağa
Bu gənc şəhər,
Bu evlər,
Bu yaşıllıq, bu sahil,
Bir də qurub yaradan
Əmək qəhrəmanları!
Sumqayıtlı uşaqlar,
Çalışaq, hər bir işdə
Əvəz edək onları!

Müharibə

MİN BEŞ YÜZ ƏLLİ!..

Dinlə məni, səninləyəm, döyüşçü qardaş
Gün bu gündü, ay bu aydı, bir il əzəldi.
Sevincimdən haman o gün titrədi dağ-daş,
Məğrur başım buludları doğradı-dəldi!
Al bayrağın qarşısında dizə çöküb mən,
Peyman etdim, odlu sözlər çıxdı dilimdən.

O gün mənə zabitimiz, – mübarək! – deyə,
Əllərimi dönə-dönə sıxdı ürəkdən.
Yaraşıqlı bir ulduz da etdi hədiyyə,
Söylədi ki: – bundan belə döyüşçüsən sən!..

Silahları payladılar; mənim tüfəngim,
Ayna kimi şəfəq saçdı, gözüm qamaşdı,
Heyrətimdən, sevincimdən dəyişdi rəngim,
Gözlərimə əvvəlcə bir rəqəm sataşdı.
Bir kənara çəkilərək, baxdım əməlli,
Tüfəngimin nömrəsiydi: min beş yüz əlli!

Dinlə məni, səninləyəm, döyüşçü qardaş:
Çox çəkmədi, bir gün mən də girişdim hərbə.
Toza döndü qarşımızda hər qaya, hər daş,
Tüfəngimlə tamamladı zərbəni-zərbə.
O mənimlə sirdaş oldu çətində, darda,
O mənimlə bir yeridi qasırğalarda!

Bir gün oldu, yaralandım vuruşmalarda,
O vəfalı silahıma dedim əlvida!..
Hər an onu min həsrətlə salarkən yada,

Deyirəm ki, uzaq olsun ondan hər qada!
O mənimlə hər döyüşdə yardı cəbhələr,
O mənimçin qiymətlidir bəbəyim qədər!

Kim bilir ki, bəlkə də o səndədir, ey dost
Bu sözümü yaxşı eşit, sanma giley, dost;
O silahla düşmənin bağrını teylə;
Əziz dostum, hər döyüşdə məni yad eylə!..
Bilirəm ki, o sənincün candan şirindir;

Muğayat ol, əziz qardaş, o yarağından!
Unutma ki, haman silah bir əsgərindir,
Onun qəlbi fərəhlənir hər sorağından.
Yaxşı vuruş, mən sevinim, tapım təsəlli,
Silahımın adı budur: min beş yüz olli!

XATİRAT

I

Bəzən dalıb xəyalata, düşündükcə səni mən
Xatirələr gəlib keçir səhnə-səhnə gözümdən.
Qarlı çöllər, düzənlər də gəlib düşür yadıma
Qan gölündə üzənlər də gəlib düşür yadıma...
Yadımdadır: Bir gün axşam, göyün üzü dumandı:
Təbiətin hər tərəfi, çölü, düzü dumandı,
Haman gecə yadımdadır, bir ad çıxdı dilindən,
Gərək ki, sən o gün məktub almışdın sevgilindən.
Sən məktubu dönə-dönə, min həsrətlə oxudun,
Ürəyində aşıb-daşan məhəbbətlə oxudun.
Çox düşündün dərdli-dərdli, sonra dedin: –
Komandir!
Xahişim var, mənə bir az kömək edin, komandir!
Deyirlər ki, şairsiniz, üç-dörd kəlmə söz yazın.
Mən köçürüm bu dəqiqə məktubuna Ayazın.
– Ayaz kimdir? Anandırmı?

– Bağışlayın. Sevgilim...
Ayrıldığım gündən bəri tamam olur bir ilim.
Necə olsa, şair sözu incə olar, bilirəm,
Hər kəlməsi ürək açan qönçə olar, bilirəm.
Yazarsanmı, ay komandir, bax kağız da tapmışam.
Şeri buna köçürməkçün ağ kağız da tapmışam.
– Sabah səhər, yaxşımı? Gəl postlara bir baş çəkək,
Buralarda gecə gəzmək qorxuludur indi tək...
– Nəsib, dünən məktubunu yolladınmı Ayaza?
– Məktub nədir, ay komandir, baxırsanmı ayaza?
Qoy bu gün bu kəndə girək tonqal qurub qızarıq,
Ayazın da məktubunu qayda ilə yazarıq.
Heç olmasa mən də yazım məktubumda özümdən,
Ki, bir nəfər alman belə yayınmamış gözümdən,
Yoxsa deyər, qorxur Nəsib vuruşmadan, döyüşdən...
Bu mənimçün daha pisdir, ay komandir, söyüşdən,
Qoy bu gün bu kəndi alaq, tonqal qurub qızarıq,
Ayazın da məktubunu qayda ilə yazarıq.

II

Ara qızdı, ac güllələr şığıdılar başlara,
Od mərmilər işlədikcə torpaqlara, daşlara.
Qoç oğlanlar süründülər bir-birinin yerinə,
Bu döyüşdə dayanmağın mənası nə, yeri nə?!
Hamı coşdu – Vətən! – deyə irəliyə atıldı.
Nəsib dedi:
Mən gedirəm!
Onun qaşı çatıldı...
– Hara belə?
– İcazə ver, komandir,
Bircə bax gör, komandir!
Sağ cinahda altı tank var, arxamıza keçərlər
Amandır ki, yoldaşları oda tutub biçərlər.
İcazə ver, məhrum etmə bu döyüşdən məni sən,
Əmin ol ki, Nəsibdən şad xəbər eşidəcəksən...

Qucaqladı, o, boynumu, öpdü mənim üzümdən,
Getdi qoçaq, vəfalı dost uzaqlaşdı gözümdən,
Dəqiqələr bir-birini tələsdirdi başımda,
Nigarandım, xəyal mənim yel əsdirdi başımda.
Alov qopdu sol yanımdan, dedim ki, bu Nəsibdir,
Qoçaq oğlan iki tankın qabağını kəsibdir!
İki tankın bir gövdəsi küləş kimi yanırdı,
Dördü isə çəkilərək kəndə, daldalanırdı...

III

Kənd alınmış, düşmənlərdən iz qalmamış burada,
Qoç oğlanlar pələng olur hər döyüşdə, davada,
Nəsibdənsə xəbər yoxdur, nə gecikdi? hardadır?
Bəlkə indi yad əllərdə, bəlkə ömrü dardadır?
Döyüş susdu, qəhrəmanlar çəkildilər damlara,
Eh nifrət bu rahatlığa, Nəsibsiz axşamlara!..
Axtarıram meyidləri, Nəsib!.. – deyə səbirsiz.
Dostumdansa nə bir nişan, nə bir soraq, nə bir iz...
– Can leytenant, bir az su ver!
– Kimsən?
– Nəsibəm, Nəsib...
Vəfalı dost, sən qoçaqdın, sənə nə oldu, Nəsib?!
Əyilərək mərd başını aldım onun dizimə,
Hey baxdıqca mən dostuma, yaş dolurdu gözümə.
– Nəsib söylə, Nəsib, danış, harandadır yaralar?
– Can komandir, uzun ömrü daraldandır yaralar...
Bu sözlərim sonuncudur, dinlə məni, amandır!
Bir az sonra gec olacaq, dinlə məni, amandır!
Serjant Nəsib altı tankın ikisini yandırdı...
Mən hamıdan qabaq idim... Uf, belimi sındırdı...
Məlun yara!.. Ay komandir, məktub yazın Ayaza,
Ölməmişəm deyin hələ, gələcəyəm bu yaza...
Ayaz məni... – O dinmədi, ağırlaşdı bədəni,
Öldü Nəsib, qan içində, hələ yaşdı bədəni.

ONUN QIZI

O mənə yoldaş oldu hər yerdə, hər davada;
Bizi birgə izlədi min işkəncə, min qada.
Mən ona çox söylədim, o məni çox dinlədi;
O mənimlə gülüşdü, o mənimlə inlədi.
Bəzən qarlı, dumanlı günlər bizi haqladı,
O mənimlə qorxulu yolları ayaqladı.

Bir axşamdı, səngərə çökdü yenə qaranlıq,
Vətən, külfət həsrəti, qəriblik, nigaranlıq
Fikrimizdə dolandı.
Gah üzümüz tutuldu, gah gözümüz bulandı...
Xeyli çəkdi qazmada, bu lal sükut, doymadıq,
Hər nə vardı düşündük, daha bir şey qoymadıq...
Beləliklə keçirdik bu lal, dilsiz anları:
"Onu bircə dəfə də görə bilsəydim barı!..." –
Deyərək, dostum məni yenə dilə gətirdi;
Qəlbimin kamanını çəkdi, zilə gətirdi.
Dedim: – Nədir nisgilin,
Anan, yoxsa sevgilin?..
Dedi: – Anam da vardı; onu əcəl apardı,
Sevgilimi evimdən odlu cəbhə qopardı.
Onun da taleyindən xəbər verən olmadı,
Nə yerini söyləyən, nə də görən olmadı...
Təkcə bunlar deyildir incidən, üzən məni,
Aparma onun həsrəti yandırır bəzən məni!..
– O kimdir!.. Balanmıdır?
– Balamdır, bəli, dostum,
Bizə qıyan fələyin düşəydi əli, dostum!..
Xeyli çəkdi söhbəti qızından, bircəsindən.
Qəlbini oxuyurdum onun titrək səsindən
Səngərimdə söndü şam,
Sözümüz, söhbətimiz belə bitdi bu axşam...
O söykədi belimə qızınmaqçın belini,
Sağ ol, – dedi, başına çəkdi öz şinelini.

* * *

Mərmilərin alovu qızartdı üfüqləri,
Yenə dostumla açdıq bu tufanlı səhəri,
Dostumun hər güllәsi bir yağını haqladı,
Əllərinə keçəni tapdadı, ayaqladı!
Biz onunla vuruşduq yenə o gün bərabər,
Amma birgə gülmədi bizə daha bir səhər.
Bircə yara, dostumu əlimdən aldı, neylim!?.
O mənimlə gəlmədi, orada qaldı, neylim?!.
Vuruşlarda düşündüm, bütün yollar uzunu,
Bir vəfalı dostumu, bir də onun qızını!..

DOSTUM

Mənə dost demədi dostum bircə yol,
Nə də gətirmədi çoxlu hədiyyə.
Evimdə can-başla açmadı əl-qol
Paltomu tutmadı: – dostunam! – deyə

Stol arxasında oturan zaman
Dili dolaşmadı, əli əsmədi.
Demədi: "yolunda sənin qurbanam".
And içib, min dəfə çörək kosmədi.

Gəldi evimizə həftədə, ayda
Şerdən, sənətdən danışdıq qoşa.
Bəzən bumbuz oldu məxməri çay da,
Uzun gecələri bir vurduq başa.

Evdə uşaqlarım onu soruşdu,
Ötəndə həftəsi darıxdım özüm.
Get-gedə evimə məhrəm olmuşdu,
Ürəkdən sevirdim onu mən düzü.

Mənə dost demədi, dostum bircə yol
Nə də gətirmədi çoxlu hədiyyə.
Evimdə can-başla açmadı əl-qol,
Paltomu tutmadı dostunam deyə.

Bir gün cəbhə bizi aldı qoynuna,
Yenə bir səngərə düşdük yanaşı.
Burda da o mənə, nə də mən ona
Dost sözü demədik hər kəlmə başı.

Bir səhər üfüqdə söküləndə dan
Döyüş meydanına axışdı qoşun.
Burulub göylərə qalxdı toz-duman.
Yerə yağış kimi yağdı qurğuşun.

Düşmən səngərinə yeridik qoşa,
Düşmən məni aldı əvvəl nişana.
Bu yerdə neyləsin qardaş-qardaşa?
Həyat bir yanadır, ölüm bir yana!

Dostum pələng kimi atıldı birdən
O, öz sinəsini verdi qabağa.
Düşməni süngüylə vurduğu yerdə,
Büküldü dizləri, düşdü torpağa.

Əyildim, soruşdum: söylə nədir bu?!
Mənim qismətimdi o qara güllə?!
Dedi: – aman, mənə bircə damcı su,
Sonra ürəyimin sözünü dinlə.

Mənim bir zamanlar çörək kəsdiyim
Evdə, gözü yolda balaların var.
Dedim qoy mən ölüm, sən ölmə dostum,
Yetim qalmasınlar qoy sənsiz onlar.

Dedi, gözlərini əbədi yumdu!
İstər qərinələrə, əsrlər ötə.
Əsl dostluq budur, sədaqət budur,
Alqış bu dostluğa, bu sədaqətə!

SEVİR, SEVMƏYİR?

Göy çinar kölgəsində fikrə gedib tək,
Oturmuşdur bir gözəl, yol çəkir gözü.
Düşünür ki, sevgilim nə vaxt gələcək?
Alışır yavaş-yavaş qəlbinin közü;
Əlində al qırmızı bir dəstə çiçək,
Sevirmi? Sevməyirmi? Nə vaxt gələcək?

Qoparır yarpaqları, astadan deyir:
Gözlərim yollardadır, qulağım səsdə,
Söyləyin, yarpaqlarım, sevir, sevməyir?
Qurtarır əlindəki güllərdən dəstə,
Amma nə bilsin o qız, cəbhədə bu an,
"Mən tək onu sevirəm!" – deyə verdi can.

Döyüşən ordu, 1942

EŞQİMİZ NAĞIL OLSUN

Dünən axşam bir albomu əlimə aldım,
Ürəyimin ilk sözünü gətirdim dilə.
Düşündükcə o yerləri xəyala daldım
Könlüm yenə pərvaz etdi həmən sahilə...

Yenə yalın ayağımı ləpələr yuyur,
Odur kiçik qayığımız gözləyir bizi.
Şair könlüm hər addımda min aləm duyur,
Gəzdirdikcə sahillərdə ilk sevgimizi.

Aylı gecə... Oturmuşuq sahildə yalqız
Ürəyimi kitab kimi oxuduqca sən.
Söyləyirəm: – İnan mənə, inan, gözəl qız,
Keçsə illər, keçsə aylar, sən mənimkisən!..

Gəmi çəkir lövbərini ağarır sular:
Ayrılırıq... hicran çəkir araya pərdə,
Ey sevgilim, ağlamağın nə mənası var?
Qayıdaram – ürəyini qul etmə dərdə!

Sahil dərdli... Gözlərimdə kiçildikcə sən,
Çəkməyirsən nəzərini göy ləpələrdən.
Ürəyimdə yanan eşqi anlaya bilsən,
Sən də məni yad edərsən bəlkə də hərdən...

Səndən iki məktub aldım o gündən bəri,
Tək bu oldu eşqimizin sonu, əvvəli.
Min əzabla sürdüm ötən dərdli günləri,
Sevgimizin həsrətilə yaşadım, bəli!..

Uzun zaman göy sularda qan izi gördüm.
Xəyalımda sahillərdə aradım səni...
Eşqimiz tək o pak, dərin dənizi gördüm,
Sevgimizin toxundumu daşa yelkəni?

Kim bilir ki, gözəl pəri, indi hardasan?..
Ala gözlər həsrət ilə baxır yollara;
Bəlkə də... ah, yad ellərdə, uzaqlardasan, –
Bir namərd əl bəlkə səni çəkmişdir dara.

Yox, incimə, aman, məni xəyal aldadır,
Başındakı bir tükünə zaval olmasın!
Bu gün eşqim, inan mənə, başqa haldadır,
Qoy gəncliyin yad əllərdə pamal olmasın!

Qoy yenə də göy suları yarsın salımız,
Mən Krımın bağlarında anım sevgimi.
Qoy bizim bu pak eşqimiz, bu vüsalımız
Əzbər olsun ağızlarda bir nağıl kimi!

1944

BAHAR GƏLİB

Yenə bahar gəlib, oyanıb aləm
Mən öz qazmamdayam, yerim soyuq, dar.
Sənin də könlünü sarıb qüssə-qəm
Könlümü açaraq oxşamır bahar;
Bilirəm, mən uzaq, ölümüm yaxın,
Mərmilər açılır dörd bir yanımda.
Sən şad müjdəsini gözlə sabahın,
Sevgilim, şən yaşa xanimanımda.

1943

İKİ KƏLMƏ

Bilirsən ki, ölüm-itim həmişə var dünyada.
Ürək dolu, göz müntəzir, aman vermir arzular.
İzləsə də daban-daban məni ölüm, qan-qada,
Gözlərimin qarşısında yenə tutursan qərar.

Utanıram, bu yazdığım ürəyimin sözüdür,
Cıracaqsan bu məktubu, bəlkə bir axşamçağı.
Yox, bəlkə də sevinəcək, deyəcəksən: "Özüdür!",
Dalacaqsan xəyalata, söndürərək çırağı...

Kim nə bilir: olan-olmuş, sən uzaq, mən aralı,
Mən özümlə gətirmişəm eşqimi uzaqlara,
Qabağımda hər can verən, hər ölən, hər yaralı,
Söyləyərkən son sözünü: – "Salam yetirin yara...",
Danlayıram dönə-dönə, danlayıram özümü;
Yaman qoydum ürəyimdə iki kəlmə sözümü...

İndi, budur, düşünürəm baxıb uzun yollara.
Deyirəm ki, bu dünyada yad etməli kimim var!
Qövr etdikcə ürəyimdə gizli qalan bir yara,
Nə əlacım, nə dərmanım, nə də bir həkimim var!

Düşünürəm, bəlkə bir gün, bəlkə bu gün, ya sabah,
Qəfil əcəl gənc ömrümə qəsb elədi, zamandır.
Oxu, mənim mətləbimdən, ürəyimdən ol agah,
Unutma ki, nakam ölmək hər bəladan yamandır.

Mən istərəm, yar-yoldaşım qapayanda gözümü,
Min zillətlə, min əzabla ələ alıb özümü,
Can verəndə, bir yar kimi çəkim sənin adını.
Tale mənə çox görməsin məhəbbətin dadını...

Qoy yeməsin varlığımı bu arzular, bu qəmlər,
Açılmışdır ürəyimdə məhəbbətin yelkəni...
Mətləbimi tez açmasam, cavan ömrüm vərəmlər, –
İki kəlmə sözüm vardır ay qız: "Sevirəm səni!".

AY DOĞANDA GƏLƏRDİ!..

Onu hər axşamçağı yol üstündə görərdim.
Qərib-qərib baxardı uzun-uzun yollara.
Əzərdi mənliyimi bu marağım, bu dərdim,
O nazənin, o mələk, gözlər qara, qaş qara...
Durub-durub yollara hey tamaşa edərdi.
Gözündə yaş, intizar... kor-peşiman gedərdi.

Dünən yenə onunla yol üstündə tuş oldum.
Pərişandı saçları, gözlər qara, qaş qara...
Məst deyildim, xeyir mən, nədənsə bihuş oldum,
Baxdıqca ağ üzündə şəvə kimi xallara...
Mən durdum, o, dayandı.
Ürəyim oda yandı!
Xcyli keçdi, gözəl qız söykənərək bir daşa;
Daldı dərin xəyala,
Hey bu sonsuz yollara baxdı, etdi tamaşa
Maraqlandım bu hala,
O, çox baxdı, düşündü,
Hansı vaxtı düşündü?..

Yaxınlaşdım bu dəfə, dedim. – Dərdin nədir, qız?
Dedi: – Yol üstündəyəm, yolçuluğun nə dərdi?
Dedim: – Gecə keçir, bax, doğmuş daha ay, ulduz,
Dedi: – O da görüşə ay doğanda gələrdi...
Söhbətimiz uzandı.
O danışdı, o andı...
Varaqladı qəlbini zər üzlü dəftər kimi:
Söylədi bu yolların tarixini o mələk.
Tutuldu gecələr tək, açıldı səhər kimi.
Bəzən hıçqırtılarla coşub vəcdə gələrək,
Dil açdı gözəl pəri.
Doluxsundu gözləri,
– İndi iki il olar, mən bu yolda lal kimi
Durub hər axşamçağı düşünürəm yarımı.
Bəzən də o görünür mənə bir xəyal kimi,
Onun bu xəyalına, verib ixtiyarımı,
Danışıram, gülürəm,
Nə cləyim, bilirəm,
Bir anlığa unutmaq, qovmaq üçün dərdimi
Bu keçən görüş yeri mənə bir təsəllidir...
Onu düşmən güllesi torpaqlara sərdimi?
Döyüş qurbansız olmaz, bu mənə də bəllidir.
Lakin görüş günləri,
Biz ayrılandan bəri,
Çəkib-çəkib gətirir bax, məni bu yollara,
Unuduram bir anlıq bu hicranı, bu dərdi,
Mən bu yerdə vermişəm öz qəlbimi dildara,
O hər axşam görüşə ay doğanda gələrdi...

Lirik şeirlər

ETİRAF

Sən şahsan, sultansan qulundur aləm
Mənim qulluğa da yoxdur gumanım.
Səndən uzaq gəzir hicran, qəm, ələm,
Mənim ərşə çıxır ahım, amanım.

Sən gülsən, rəngin al, ətrin gözəl,
Mən sənə əbədi həsrət, tamarzı.
Deyə bilmirəm ki, gəl ey gözəl, gəl,
Yandırdı bağrımı, yaxdı bu arzu!

Sən, bir ev dolusu işıq, yaraşıq,
Mən sənin şövqündə qamaşan gözəm.
Sənə, bilirəm ki, hər görən aşiq,
Mənsə olsa-olsa quru bir sözəm.

Sən bilə bilməzsən nə çəkirəm mən.
Gözəlin yandırmaq olur adəti.
Sənə qurban olmaq gəlsə əlimdən,
Heç kəsə vermərəm bu səadəti!

Bilirəm, bu sözlər sənə yad deyil,
Çox olub qarşında diz də çökənlər.
Sən buna layiqsən, ancaq inan, bil,
Bəzən çiçək açır qara tikanlar.

Mən eşqi, ilqarı dadmışam bir azı
Bəzən gülmüşəm də, ağlamışam da.
Ötüb harın-harın neçə bahar, yaz,
Sel kimi coşmuşam çağlamışam da.